# Bakıda "Nine Senses Fest" beynəlxalq mənəvi və fiziki təcrübələr festivalı keçirilir





**Bakıda "Nine Senses Fest" beynəlxalq mənəvi və fiziki təcrübələr festivalının təntənəli açılış mərasimi olub. Açılış mərasimi festivalın tərəfdaş məkanlarından biri olan "The Club Port Baku" idman klubunda keçirilib. Özünüinkişaf və sağlamlıq sahəsi üzrə bu miqyasda möhtəşəm tədbir Azərbaycanda ilk dəfədir təşkil olunur. Heydər Əliyev Fondunun vitse-prezidenti, "Nine Senses" incəsənət mərkəzinin təsisçisi Leyla Əliyevanın dəstəyi ilə keçirilən festivalda üç gün ərzində Azərbaycanın, həmçinin dünyanın ən peşəkar mütəxəssislərinin ustad dərsləri təşkil olunacaq.**

AZƏRTAC xəbər verir ki, festivalın açılış mərasimində "Nine Senses" yaradıcılıq və özünüinkişaf mərkəzinin akademik direktoru və Beynəlxalq "Nine Senses" festivalının həmtəşkilatçısı Natalya Jukova çıxış edib. O, çıxışında ölkəmizdə sağlam həyat tərzinin inkişafı və təbliği baxımından festivalın keçirilməsinin əhəmiyyətini qeyd edib. "Biz festivalı iki həftəyə hazırladıq, bu, inanılmazdır! Komanda qısa müddət ərzində bu cür böyük layihəni həyata keçirməklə möhtəşəm iş bacardı. Qeyd edim ki, festival növbəti iki gün ərzində daha da canlanacaq. Bu gün rahat səhər məşqləri ilə başladıq - tsiqun və nəfəsalma texnikaları. Oktyabrın 7-də isə hedlaynerlərimiz - İmran Kriya, Nandan Gautam, Anna Vladimirovanın çıxışları ilə davam edəcəyik.

Bazar günü isə "Sea Breeze Event Hall"da biznes panel və "Nine Senses"də müxtəlif və maraqlı proqram planlaşdırılır. Axşam konsertləri, tematik yarmarka, rəqs improvizasiyaları keçiriləcəkdir. Bütün bunlar festival iştirakçılarına yeni təcrübələr və unudulmaz anlar yaşadacaq.

Hər il keçiriləcəyini gözlədiyimiz layihəmizə "Nine Senses"in təsisçisi Leyla xanım dəstək göstərib. Məqsədimiz üç istiqamətdə fəaliyyət göstərən peşəkar mütəxəssisləri bir araya gətirmək və festival ərəfəsində onların təcrübələrini festival iştirakçılarına təqdim etməkdir", - deyə Natalya Jukova bildirib.

Festival iştirakçılara insanın harmonik inkişafı ilə bağlı, demək olar ki, bütün müasir dünya tendensiyaları ilə tanış olmaq imkanı verəcək. Festival ərəfəsində kriya, kundalini, hatha, nidra, bədii yoqa, meditasiya təcrübələri, bədənyönümlü təcrübələr, rəqs məşqləri, saund-hilinq, stretçinq və gimnastika, tsiqun, terapevtik qrup məşqləri, emosional zəkanın inkişafına yönəlmiş fərqli sahələr üzrə kouçinq, müxtəlif növ art-terapiyalar təşkil olunacaq.

Bildirək ki, "Nine Senses Fest" beynəlxalq mənəvi və fiziki təcrübələr festivalı oktyabrın 8-dək davam edəcək.

Xatırladaq ki, festival ANSA təhsil platforması ilə birgə təşkil olunub.

Azərbaycan. - 2023.- 8 oktyabr.- S.8.